# Yurdumuzla tanışlıq şagirdlərin dünyagörüşünün formalaşmasında mühüm rol oynayır

"Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyası çərçivəsində Naxçıvan Muxtar Respublikasının məktəbliləri martın 28-də Bakıda Heydər Əliyev Mərkəzində olublar. AZƏRTAC xəbər verir ki, məktəblilərə dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzinin binası haqqında məlumat verilib. Bildirilib ki, mərkəzin fəaliyyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının və ulu öndərin zəngin irsinin dərindən öyrənilməsinə və tədqiqinə yönəlib. Bundan əlavə, Heydər Əliyev Mərkəzinin həyata keçirdiyi layihələr Azərbaycan tarixinin, dilinin, mədəniyyətinin və digər milli sərvətlərinin beynəlxalq aləmdə populyarlaşdırılmasına və təbliğinə, elmin, təhsilin, mədəniyyətin, səhiyyənin, idmanın, ekologiyanın və iqtisadiyyatın müxtəlif sahələrinin dəstəklənməsinə və inkişafına xidmət göstərir.

Mərkəzdəki Heydər Əliyev Muzeyi şagirdlərin böyük marağına səbəb olub. Muzeyin "Azərbaycanın ictimai-siyasi həyatı", "Dövlətçilik, irs və nailiyyətlər", "Fotolarda əks olunmuş həyat" bölmələrində ulu öndərin həm sovet dövründə, həm də müstəqillik illərində fəaliyyət konsepsiyasının müxtəlif aspektləri virtual formada təqdim edilir.

Qonaqlar həmçinin mərkəzin "Azərbaycan inciləri" sərgisi ilə tanış olublar. Qeyd edilib ki, Azərbaycanın tarixini və mədəniyyətini əks etdirən bu sərgidə ölkəmizin tükənməz təbii sərvətlərinə, çoxəsrlik tarixinə, mədəni irsinə dair nadir eksponatlar nümayiş olunur. Sərgidə qədim sənətlərin, o cümlədən Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələri yer alıb, mis məmulatlar xüsusi maraq doğurur. Azərbaycanın qədim musiqi alətləri orijinal formada - səsli təqdim olunur. Ölkəmizin milli geyimlərinin, qədim sikkələrinin nümayiş olunduğu ekspozisiyada naxçıvanlı məktəblilərin diqqətinə müxtəlif dillərdə müqəddəs kitablar da çatdırılıb.

Məktəblilər həmçinin Bakıda və regionlardakı tarixi memarlıq abidələrinin maketlərini əks etdirən "Mini Azərbaycan" sərgisi ilə tanış olublar.

Naxçıvan məktəbliləri Heydər Əliyev Mərkəzindən zəngin təəssüratlarla ayrılıblar.

* * *

"Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində paytaxtımıza gələn naxçıvanlı məktəblilər martın 28-də Bakı Olimpiya Stadionunda olublar. Məktəblilərə bu möhtəşəm idman qurğusu barədə ətraflı məlumat verilib.



Qeyd olunub ki, stadionun tikintisinə 2011-ci il iyunun 6-da başlanılıb. Müasir arxitektura üslubu, xüsusi gözəlliyi ilə seçilən Bakı Olimpiya Stadionu bu tipli idman qurğuları sırasında özünəməxsus yer tutur.

Məktəblilərin diqqətinə çatdırılıb ki, 2015-ci ildə ilk Avropa, ötən il isə IV İslam Həmrəyliyi oyunlarının açılış və bağlanış mərasimləri məhz bu arenada təşkil olunub. Azərbaycan idmanı tarixində ilk dəfə UEFA Çempionlar Liqasının final mərhələsinə vəsiqə qazanan Ağdamın "Qarabağ" klubu bu turnir çərçivəsində ev oyunlarını Bakı Olimpiya Stadionunda keçirib. Həmçinin futbol üzrə UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün final qarşılaşması Bakı Olimpiya Stadionunda keçiriləcək. 2020-ci ildə təşkil olunacaq futbol üzrə növbəti Avropa çempionatının final mərhələsinin bir neçə görüşü də bu möhtəşəm idman arenasında oynanılacaq.

Naxçıvanlı məktəblilər Bakı Olimpiya Stadionu ilə tanışlıqdan xoş təəssüratla ayrılıblar.

* * *

"Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində yeddi rayonu təmsil edən, ümumilikdə, 300 nəfərə yaxın məktəblinin qədim Quba və Azərbaycanın "şimal qapısı" sayılan Qusarla tanışlığı davam edir. Martın 28-də Masallı, Cəlilabad və Biləsuvar ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri Quba rayonunun görməli yerlərini gəziblər.

Qədim Qubaya ekskursiya dağ yəhudilərinin yığcam yaşadıqları Qırmızı qəsəbədən başlayıb. Şagirdlər qəsəbədə salınan Heydər Əliyev parkını gəzib, eləcə də Qudyalçayın üzərindəki Tağlı körpü ilə tanış olublar.

Ekskursiya zamanı məktəblilər Azərbaycanın təşəbbüsü ilə reallaşan bir sıra qlobal layihələr barədə də məlumatlandırılıblar. Tur-aksiya iştirakçılarının diqqətinə çatdırılıb ki, Azərbaycanda iqtisadiyyatın bütün sahələrinə böyük investisiyalar yatırılır. Həyata keçirilən layihələr həm iqtisadi, həm də geostrateji əhəmiyyət daşıyır. Ötən il oktyabrın 30-da açılışı olan və qitələri birləşdirən dəmir İpək yolu adlandırılan Bakı-Tbilisi-Qars dəmir yolu məhz belə layihələrdəndir. Belə böyük layihələrdən ölkəmizin bütün bölgələrinin dinamik inkişafına pay düşür.

Zəngin memarlıq üslubuna malik Cümə məscidi ilə tanışlıq zamanı məktəblilərin diqqətinə çatdırılıb ki, məbəd 1802-ci ildə tikilib. Bu məscid təkcə Qubada deyil, bütün şimal-şərqi Azərbaycanda ən qədim dini mərkəzlərdən biridir.

Quba Soyqırımı Memorial Kompleksini ziyarət zamanı tur-aksiyanın iştirakçıları ermənilərin törətdikləri soyqırımı haqqında ətraflı məlumatlandırılıblar. Tur-aksiya iştirakçıları şəhərdə fəaliyyət göstərən "Qədim Quba" xalçaçılıq müəssisəsində xalça toxunması prosesini də izləyiblər.

Günün ikinci yarısında məktəblilər Quba rayonu ərazisində, Xınalıq yolu üzərində yerləşən dağ şəlaləsinə ekskursiya ediblər.

Tur-aksiya iştirakçıları, həmçinin "Rixos Quba Azerbaijan" hotel kompleksi və burada yerləşən Azərbaycan Milli Qolf Klubu ilə də yaxından tanış olublar.

Cəbrayıl, Xocavənd, Hacıqabul və Zərdab şagirdləri isə martın 28-də Azərbaycanın "şimal qapısı" sayılan Qusara səfər ediblər. Məktəblilər Qusar şəhərinin girişindəki Bayraq meydanında qarşılanıblar. Rayon icra hakimiyyətinin, mədəniyyət və turizm, təhsil şöbələrinin nümayəndələri şagirdlərə Qusar rayonu haqqında ətraflı məlumat veriblər. Bildirilib ki, Qusar rayonu təkcə təbii gözəllikləri ilə deyil, həm də qədim mədəniyyət abidələri, sənətkarlıq nümunələri ilə də məşhurdur. Yayda gözəlliyi ilə göz oxşayan meşələri, qışda qara bürünmüş dağ və dərələri buraya gələnlərin diqqətini çəkir. Rayon iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir.

Sonra tur-aksiya iştirakçıları "Şahdağ" Turizm Mərkəzi ilə tanış olublar. Məktəblilərə buradakı hotellər və müxtəlif xidmətlər barədə ətraflı məlumatlar verilib. Tur-aksiya iştirakçıları mərkəzin xidmətlərindən pulsuz yararlanmaq imkanı da qazanıblar.

Məktəblilər günün ikinci yarısında Həzrə kəndində Şeyx Cüneyd türbəsini ziyarət edib, şəhərdəki Heydər Əliyev Mərkəzində ulu öndərin zəngin irsini və fəaliyyətini əks etdirən fotoşəkillərə baxıblar.

Daha sonra şagirdlər Qusar Tarix-Diyarşünaslıq Muzeyinə, Olimpiya İdman Kompleksinə və rəsm qalereyasına ekskursiya ediblər.

* * *

Şəki-Qəbələ-Zaqatala marşrutu üzrə ekskursiyaya çıxan Ağcabədi, Ağdam, Ağstafa, Bərdə, Beyləqan, Daşkəsən, Göyçay, Qazax və Tovuz rayonlarının məktəbliləri martın 28-də Zaqatala rayonuna gəliblər. Tur-aksiya iştirakçıları Zaqatala şəhərindəki Heydər Əliyev Mərkəzində rayonun rəhbər işçiləri tərəfindən mehribanlıqla qarşılanıblar.

Sonra tur-aksiyada iştirak edən doqquz rayonun məktəbliləri Heydər Əliyev Mərkəzi ilə yaxından tanış olublar. Məlumat verilib ki, 2008-ci ildən fəaliyyət göstərən Heydər Əliyev Mərkəzinin yeni binası 2015-ci ilin noyabrında istifadəyə verilib. İkimərtəbəli binada müxtəlif təyinatlı bölmələr fəaliyyət göstərir. Binanın birinci mərtəbəsindəki ekspozisiya zalında ulu öndərin zəngin həyat yolu və çoxşaxəli fəaliyyətinin bütün dövrləri barədə ətraflı məlumat almaq mümkündür. Binada həmçinin akt və konfrans zalları, elektron kitabxana, kinozal, müxtəlif dərnək otaqları, fotostudiya, poliqrafiya emalatxanası və digər otaqlar yerləşir. Mərkəzdə fəaliyyət göstərən rəqs, rəsm, gitara, gənc fotoqraf, dekorativ tikmə və toxuculuq dərnəklərində hər gün onlarla yeniyetmə və gənc məşğul olur. Sonra məktəblilər ümummilli lider Heydər Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkını ziyarət ediblər. 1947-ci ildə salınan parkın ərazisi 13 hektardır. Burada 27 ağac növü var. Park rayon əhalisinin, eləcə də qonaqların ən sevimli istirahət yeridir.

Tur-aksiya iştirakçıları sonra 116 pilləkəndən ibarət olan "Qaladüzü pilləkənləri"ndən düşərək Zaqatala şəhərinin tarixi hissəsinə - Dədə Qorqud meydanına gəliblər. "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyanın iştirakçıları Zaqataladan zəngin təəssüratlarla ayrılıblar.

Azərbaycan.- 2018.-29 mart.- S.10.